

Məmməd İlqar

* * *

Bu torpaq deyilən ki var -
Hər yerdə birdi dağılmış!
Qönçə - qönçə, çiçək - çiçək,
Qəbir - qəbirdi dağılmış.

Sədadı - sazdan süzülür,
Sevgidi - gözdən süzülür,
Sehrdi - sözdən süzülür -
Nə boyda sirdi dağılmış!

Gələn gedir, bir də gəlmir,
Gəlmir oğul, bil də, gəlmir.
Qarğamağa dil də gəlmir -
Kəbədi, pirdi dağılmış!

## Neynim

Ha çaldım, könlümün bu təşnə vaxtı,
Sazım dinmədi ki, dinmədi, neynim.
İstədim qarğıyam taleyi, baxtı -
Dilim dönmədi ki, dönmədi, neynim.

Özüm öz odumda əridim, itdim,
Karvan buludları bəri yeritdim.
Arazı axıtdım, Kürü yeritdim -
Odum sönmədi ki, sönmədi, neynim.

Aldı bir havalı xatirə məni,
Bələdi əmbərə - ətirə məni.
Dedim bəlkə mənə yetirə məni -
Göydən enmədi ki, enmədi, neynim.

İlğımdı, dumandı, sisdi, nədisə,
Sehrdi, sədadı, səsdi, nədisə,
Axır - bu zalımın qəsdi nədisə -
Aparır hələ də Məmmədi, neynim?..

## Sarı güllərə

Eşq yolunda nallar düşür,
Qovuşunca qanlar düşür.
Bülbülə bax, gözlərindən
Nə qırmızı xallar düşür -
Sarı güllərə-güllərə.

Ömrü - günü ələk-vələk,
Can sökülür lələk-lələk...
Biçarə bülbül neyləsin -
Sən Allah, qondurma fələk
Sarı güllərə, güllərə.

Gözümü çaylaq elərəm,
Köysümü yaylaq elərəm.
O gülləri qan aparır,
Könlümü yaylıq elərəm -
Sarı, güllərə, güllərə.

## Kəndçi kişilərə şəhər sovqatı

Sovqatımı qəbul edin,
Sovqatdı paylı kişilər.
Adınıza layiq ola
Kaş bu gəraylı, kişilər.

Aran-yaylaq köçündə də,
Əkində də, biçində də,
Dərdin-qəmin içində də.
Haylı-haraylı kişilər.

Hər nisgili bölərsiniz,
Hər müskülü bilərsiniz.
Siz ayrı kişilərsiniz -
Var olun, ayrı kişilər!

Bar-bərəkət aylarında,
"İp atdırmaz" öylərində...
Oğul-uşaq toylarında
Kepkası əyri kişilər!

## Təcnis

Ay gözü göyçəyim, gözün hardadı -
Dən salıb saçıma dərdin, dən, belə...

Yeriyən, danışan ölüyəm sənsiz -
Kim ölər mənimtək dərdindən belə?..

Dərd oxuna nişangahdı sinəm də,
Dərd əlindən ha gizlənəm, sinəm də.
Nə dərd desən yuvalanıb sinəmdə -
Bir bala sərçənin dərdindən belə.

Tapşır gözlərinə ilqara gəlsin,
Qıyma ki, ay qara, il qara gəlsin.
Gələn dərdin Məmməd İlqara gəlsin -
Neynər dərdli kəsə dərd indən belə?!.

## Anamın alqışlarından

I

Sən adilsən, İlahi,
Sən yaratdın, sən qoru.
Mənim balalarımı
Bəndələrindən qoru.

Müdam fikrində saxla,
Adam şəklində saxla.
Arvad məkrindən saxla,
Şeytan şərindən qoru.

Yol alar - yol aç neylək,
Əl açar - əlac eylə...
Bir-birinə tac eylə, -
Biri-birindən qoru.

II

Başınız ərşə dəysin,
Dağ olun a atam anam.
Həmişə gözü-könlü
Tox olun, a atam anam.

Elnən, ulusnan olun,
Bir canda yüz can olun
Göydə ulduzcan olun -
Çox olun, a atam anam.

Duman dağlıqnan olur,
Sevgi saflıqnan olur.
Hər iş sağlıqnan olur -
Sağ olun, a atam anam.